Hələ uşaqlıq illərində Hacı Hüsü, Məşədi İsi, Şahnaz, Abbas kimi şuşalı xanəndələrin məlahətli səsinə, avazına vurulmuş, Qarabağ tarzənlərinin ürək titrədən ifalarına qulaq asmış Qurban Pirimov tarı sinəsinə sıxanda özü çox balaca olsa da, arzuları böyük idi.

Bu inadlı duyğuların qanadında da musiqi dünyasına həvəslə pərvazlandı. 15 yaşı olar-olmaz öz tarı ilə məşhur xanəndələri müşayiət etdi.

Zəngin yaradıcılığı və məharətli ifaçılığı ilə milli musiqimizin inkişafında əsl fədakarlıq göstərmiş unudulmaz tarzən Qurban Pirimovu müasirləri hələ sağlığında "sənət dünyasının yavəri" adlandırırdılar. Bu da səbəbsiz deyildi.

Azərbaycanda yeni tar məktəbinin yaradıcısı Mirzə Sadıq (Sadıqcan) ənənəsinin ən layiqli davamçısı olan "Qurban Pirimov tar ifaçılığı sənətini həqiqətən ən yüksək zirvəyə qaldırmış ilk tarzəndir" (Bəhram Mansurov). Xalq artisti Əfrasiyab Bədəlbəyliyə məxsus bir fikir də diqqəti cəlb edir: "Qurban Pirimov tarçılıq sənətinin əsl tacidarı kimi respublikamızda böyük hörmət və məhəbbət qazanmışdır" (1, s.7).

Qurban Pirimov 1880-ci ilin payızında gözəl Qarabağın səfalı bir guşəsində - Ağdamın Gülablı kəndində anadan olmuşdur. Qurbanın atası Baxşəli kişi XVII əsrin məşhur sənətkarı Aşıq Valehinin nəvəsi idi. Baxşəli özü balabançı, böyük oğlu Ağalar isə aşıq idi.

Dünyaya göz açandan evdə musiqi səsi eşidən, saz havaları dinləyən Qurban hələ kiçik yaşlarında bir çox alətlərdə (balaban,



# Qurban Pirimov

● Eldar DADAŞOV,
*ADMİU-nun baş müəllimi, bəstəkar*

# Ecazkar musiqi xiridarı

saz, nağara, zurna) çalmağı sərbəst surətdə öyrənmişdi. Oğlundakı qeyri-adi istedadı duyan Baxşəli kişi Qurbanı oxutmaq qərarına gəlib. Bu niyyətlə onu Ağdamdakı rus-tatar məktəbinə qoyub.

Bütün varlığı ilə musiqiyə bağlı olan Qurbanın fikri-zikri tarda qalmışdı. O, atası ilə tez-tez Şuşaya gedərdi. Bu şəhərdə olan musiqi mühiti, el şənlikləri maqnit kimi Qurbanı özünə çəkərdi.

O, bir gün Aşıq Abbasquluya qoşularaq Şuşaya gedir. Özü ilə apardığı iki səbət armudu da bazarda sataraq tar alır. Onun bu musiqi alətinə olan sonsuz marağı Aşıq Abbasqulunu elə kövrəldir ki, tərəddüd etmədən uşağın qolundan tutaraq onu məşhur tarzən Sadıqcanın yanına gətirir.

Dövrün məşhur sənətkarı sayılan Sadıqcan bu xoş simalı uşağa çox diqqət yetirəndən sonra öz köməyini əsirgəmir. Qısa müddət ərzində ona tarzənliyin sirlərini öyrədir. Bu, bir faktdır ki, Qurban Pirimov Qarabağın el şənliklərində, toylarında fəal iştirak edəndə, məşhurlaşanda cəmi 15 yaşı vardı. Tanınmış, məşhur xanəndələr toylara məhz onunla getməyi daha çox sevərdilər.

Cabbar Qaryağdıoğlu ilə tanışlığı isə Qurban Pirimovun həyatında yeni uğurlu səhifələr açıb. Gəncin tardakı qeyri-adi çalğısı Cabbarın elə xoşuna gəlib ki, ondan ayrıla bilməyib, özü ilə Bakıya gətirib.

Xanəndə Cabbar Qaryağdıoğlu, tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvilidən ibarət yaranan trio təkcə Azərbaycanda deyil, Qafqazda, Yaxın Şərqdə yaxşı tanınırdı.

Məşhur sənətçilər bu üçlüyü nəinki Qafqazın, hətta Avropanın birinci dərəcəli ansamblları ilə müqayisə edərək onu "əzəmətli bir orkestr"ə bərabər tuturdular. Qurban Pirimovun ifasındakı kamillik və tənasüb səslənən muğamata bir özgə gözəllik gətirirdi. Bu üçlüyün fəaliyyəti 20 ildən çox çəkib.

1912-ci ildə "Sport-Rekord" aksioner cəmiyyəti Qurban Pirimovu Varşavaya dəvət edərək onun çalğısını qrammafon valına yazdırmışdır.

Zəmanəsinin məşhur sənətkarı Qarabağdan Bakıya köçdüyü gündən Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Cəlil, Üzeyir Hacıbəyli kimi şəxsiyyətlərlə ünsiyyətdə olmuşdur. Bu onun mənəvi dünyasının daha da zənginləşməsinə kömək etmişdir.

Üzeyir bəylə Qurban Pirimovun tanışlığı Şuşadan başlamışdır. Üzeyir Qurban Pirimovun tarla ünsiyyətindən qopan sədalara heyrətlə qulaq asar, bəzən də özündən asılı olmayaraq oxuyarmış.

Tədqiqatçılar Qurban Pirimovun Azərbaycanda opera janrının yaranması işində yaxından iştirakını təqdir edərək onu mədəniyyət tariximizdə bu əzəmətli janrın banilərindən biri hesab edirlər. Məşhur tarzən Üzeyir Hacıbəyli ilə bərabər "Leyli və Məcnun" (1908) operasının səhnəyə qoyulmasında iştirak edib.

Şərqin ilk operasındakı muğam parçalarını böyük şövqlə, ustalıqla çalan tarzən Qurban Pirimov məhz bu ilkinliyi ilə Azərbaycanda muğam operalarının yaranmasına imza atanlardan biri olub. Operanın hazırlığı prosesində üzləşən çətinliklərdən o, Üzeyir bəylə birgə çıxış yolu axtarmağa çalışıb. Məlumdur ki, Qurban Pirimov sadəcə ifaçı deyildi. O, həm də muğamlarımızın, xalq mahnılarımızın, rəqslərimizin gözəl bilicisi və sərrafı idi.

Qurban Pirimov 40 ildən çox Dövlət Opera və Balet Teatrında çalışmışdır. Dünyaşöhrətli bəstəkar Fikrət Əmirov yazırdı: "Məndən soruşsalar ki, Qurban Pirimov sənətinin sirri nədədir?

Əvvəlcə onu deyərdim ki, XX əsr nəsli, o cümlədən də biz gözümüzü açıb Qurban Pirimovu görmüşük və eşitmişik. İndiki Azərbaycan tarının yaradıcısı, novatoru Sadıqcan olsa da, onun canlı tarixi, ilk və böyük tarixi Qurban Pirimovdur.

Qurban Pirimovun üstünlüyü həm də bundadır ki, Azərbaycan tarını bir çox ölkələrdə, o cümlədən xaricdə ilk dəfə sinəsinə basıb çalan məhz o olub. Qurbana qulaq asanda elə bil ki, Göygölün mənzərəsini, Kəpəzin, Şahdağın şəlaləsini görürsən, eşidirsən. Bu ifadə Azərbaycan bütünlükdə muğam sədalarına dönüb gözünün önündə yenidən canlanır".

Klassik Şərq və Azərbaycan muğamlarını dərindən bilən Qurban Pirimovu həmkarlarından fərqləndirən nə idi? Bu suala onun haqqında aparılmış tədqiqatlarda və tanıyanların xatirələrində cavab tapmaq olur. Söyləyirlər ki, Qurban Pirimov tarı çox asan çalırdı. Sanki tar Qurbanın sinəsində özü dil açırmış.

Ustadın əlləri texniki işləri o qədər zərifliklə, dəqiq və sərbəst yerinə yetirirmiş ki, barmaqlarının mizraba, simlərə toxunmasında dərin bir lirizm duyulurmuş. Onun bu ünsiyyətində bir kəpənək qovuşması var idi. Qurbanın çalğısı birbaşa dinləyicinin qəlbinə tuşlanırdı. Bəlkə də buna görədir ki, Qurban Pirimov xalq musiqimizin "canlı ensiklopediyası" adlandırılıb.

Qurban Pirimov yalnız tarzən deyildi. O, həm mahir solo ifaçısı, həm də bənzərsiz müşayiətçi kimi tanınmışdır. İfa etdiyi hər bir əsərin daxili melodik və ritmik musiqisini duymaqda, səsləndirməkdə misilsiz idi. Çaldığı hər bir muğamın zəngin məzmununu açmaqda Qurban Pirimovun tayı-bərabəri yox idi.

Ustad söhbətlərində deyərmiş: "Adam gərək sənətini sevsin, qədrini bilsin". Xalq yazıçısı Mirzə İbrahimov öz xatirələrində yazırdı: "Qurbanın sənəti, muğamatı və el havalarını məharətlə səsləndirməsi, musiqiyə münasibəti, şəxsi əxlaqi keyfiyyətləri, adamlığı, adət və ənənələri hamısı bir çeşmədən - xalq çeşməsindən su içmişdi. Onun sənəti ən qüdrətli sənətlərdən biri idi.

Çaldığı zaman sanki nağıllar dünyasına, xəyalın yaratdığı füsunkar bir aləmə səyahətə gedirdin. Qurbanın tara vurğunluğunun rəmzi mənası var idi. Bu məhəbbətin dərinliyində xalqımızın əsrlər uzunu sinəsində coşan, soyumaq bilməyən sənət eşqi dil açırdı".

Qurban Pirimov tanrının ona verdiyi 85 illik ömür möhlətindən 70-ni məhz tarın simlərində dilə gətirərək Azərbaycan incəsənətinə xidmət etmişdir. Onun bu səmərəli fəaliyyəti bir tərəfdən bu misilsiz sənət bahadırına böyük el məhəbbəti, tamaşaçı sevgisi gətirmişdisə, digər tərəfdən də bir sıra mükafatlara, fəxri adlara layiq görülmüşdür. Sinəsini müxtəlif orden və medallar bəzəyirdi, respublikanın xalq artisti idi.

Qurban Pirimovun vəfatından 20 gün əvvəl M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında sənətkarın 85 illik yubileyi keçirilib. O, həmin mərasimdə "Rahab"ı 23 dəqiqə çalıb.

İnanmaq olmurmuş ki, simlərdə qeyri-adi qüdrətlə tufan qoparan, möcüzələr yaradan ahıl bir kişidir. Gənclik həvəsi və ehtirası ilə tardan qopa bilməyən Qurban Pirimovun o axşam çaldığı "Çoban bayatı-sı"nın sədası çox əfsuni imiş.

Nə Qurban tardan, nə də dinləyicilər bu ağsaçlı sənətkarın məlahətli çalğısından ayrıla bilirmiş. Bu səbəbdən də gecə çox uzun çəkir.

Gözəl və ecazkar musiqinin xiridarı olan, onu illər boyu göz bəbəyi kimi qoruyan və yaşadan Qurban Pirimovu unutmaq mümkün deyil. Yalnız ifaçılığına görə yox, həm də mədəniyyət tariximizdə həkk etdirdiyi fədakar əməyinə, yaradıcılığına görə...

## Ədəbiyyat


1. Ə. Bədəlbəyli. Qurban Pirimov. Bakı - 1955.
2. Э. Аббасова. Курбан Пиримов. Москва - 1963.
3. Ф. Шушинский. Народные певцы и музыканты Азербайджана. Москва - 1979.
4. ASE. VII cild. Bakı - 1983.